**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fonduna (ATAF) "Association Make a Better World" müsabiqəsi çərçivəsində mükafat təqdim edildi

**No: 09/04/08**
**26.08.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri və Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) İdarə Heyəti sədrinin müavini Ahmet Erentok və ATİB-in Beynəlxalq Əlaqələr üzrə təmsilçisi Fərid Məlikli Kanadanın Toronto şəhərində Amerika Assosiasiyaları Rəhbərləri Cəmiyyətinin (American Society of Association Executives – ASAE) 2009-cu il üzrə İllik İclasında iştirak etmişlər.

İclas çərçivəsində Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) təsisçisi olan Azərbaycan Türkiyə İş Adamları Birliyinə "ASAE" təşkilatının hər il keçirdiyi "Association Make a Better World" müsabiqəsi çərçivəsində Honorable Mention Award Winner mükafatı təqdim edilmişdir. Mükafatı ATİB və ATAF adına Ahmet Erentok almışdır.

Qeyd edək ki, mükafat "ATAF. Avrasiyada Sosial və İqtisadi İnteqrasiya Modeli olaraq Regional Sülh naminə Birgə Fəaliyyət" adlı layihəyə görə verilmişdir. ATAF-ın bu layihəsi Qafqaz xalqlarının sülh şəraitində yaşamasına, regionda sosial inteqrasiyanın inkişafı və əhalinin rifahının yüksəldilməsinə ən çox töhfə verə biləcək təşəbbüs olaraq qiymətləndirilmişdir.

Bu təşəbbüs ASAE tərəfindən həyata keçirilən proqramda iştirak edən namizədə təmsil etdiyi təşkilatı tanıtmaq imkanı yaradır. Təqdim edilən uğurlu layihə təşkilata müxtəlif kateqoriyalarda üzv olan sənaye partnyorları, məsləhətçi, eləcə də icma üzvü statusuna malik münsiflər heyəti tərəfindən müəyyən edilir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

Qeyd edək ki, ASAE (www.asaecenter.org) dünya üzrə 287 milyon nəfəri əhatə edən 10 mindən artıq assosiasiya ilə əməkdaşlıq edir. “Association Make a Better World” müsabiqəsi 2 kateqoriya üzrə təşkil edilir: inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasında.

2009-cu il üzrə “Association Make a Better World” müsabiqəsinin digər qalibləri olaraq inkişaf etmiş ölkələr arasında I yeri ABŞ-ı təmsil edən NRECA Beynəlxalq Fondu (NRECA International Foundation), II yeri İxtisaslı Dəyirmançılar Beynəlxalq Assosiasiyası (International Association of Operative Millers), III yeri Tibbi Təcili Yardım Cəmiyyəti (Society of Critical Care Medicine); inkişaf etməkdə olan ölkələr arasında I yeri Perunu təmsil edən Latın Amerikası Maliyyə İnstitutlarının İnkişafı Assosiasiyası (ALIDE); II yeri Azərbaycanı təmsil edən Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondu (ATAF) və III yeri isə İndoneziyanı təmsil edən Korporativ Direktorluq üzrə İndonaziya İnstitutu (IICD) tutmuşlar.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**